**2019-cu ilin oktyabr ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqları barədə**

**Y A D D A Ş**

**<u>Gəlir və mənfəət vergisinin ödəyiciləri tərəfindən</u>**

2019-cu ilin **3-cü rübü üzrə hesablanmış** cari ödəmələr 2019-cu ilin **oktyabr ayının** 15-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**<u>2019-cu ilin sentyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları</u>**

- **Əlavə dəyər vergisinin bəyannaməsi,**
- **Aksiz bəyannaməsi,**
- **Yol vergisinin bəyannaməsi,**
- **Mədən vergisinin bəyannaməsi,**
- **Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi** və
- **Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi**

2019-cu ilin **oktyabr ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi** 2019-cu ilin **oktyabr ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- 2019-cu ilin 3-cü rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları Sadələşdirilmiş verginin bəyannaməsi (daşınan və daşınmaz əmlak üçün icarə haqqı ödənildiyi halda 2 nömrəli Əlavə ilə birlikdə) **2019-cu ilin oktyabr ayının 21-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **2019-cu ilin 3-cü rübü üzrə Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi** (*ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla)*
  - ✓ 2019-cu ilin **oktyabr ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli
  - ✓ **2019-cu ilin sentyabr ayı üzrə hesablanmış vergi** isə həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**<u>2019-cu ilin 3-cü rübünə görə sığortaedənlər tərəfindən</u>**

- **Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabat**
- **İşsizlik sığortası üzrə rüblük hesabat**
  - ✓ 2019-cu ilin **oktyabr ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli
  - ✓ 2019-cu ilin **sentyabr ayı üzrə hesablanmış sığorta haqları isə** 2019-cu ilin **oktyabr ayının 15-dən** gec olmayaraq tam həcmdə nağdsız formada dövlət büdcəsinə ödənilməlidir.

- 2019-cu ilin 3-cü rübünə görə vergi ödəyiciləri tərəfindən Ödəmə mənbəyində tutulan vergi **bəyannaməsi** 2019-cu ilin **oktyabr ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Xüsusi notariuslar gəlir vergisi bəyannaməsini**

  2019-cu ilin **oktyabr ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və 2019-cu ilin **sentyabr ayı üzrə hesablanmış gəlir vergisi** həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Dövlət rüsumu haqqında hesabat**

  2019-cu ilin **oktyabr ayının 21-dək** vergi orqanına təqdim edilməlidir (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək **2 bank günü**, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu **1 ay**, digər dövlət rüsumları isə tutulduqdan sonra **1 bank günü** ərzində dövlət büdcəsinə köçürülür).

***Qeyd:***

- ✓ 20.10.2019-cu il tarixi qeyri-iş gününə təsadüf etdiyindən həmin tarixdə təqdim edilməli bəyannamələrin təqdim edilməsinin son müddəti 21.10.2019-cu il tarixə keçirilmişdir.